

# Naxçıvanın enerji təhlükəsizliyində strateji addım

*Azərbaycan-Türkiyə münasibətlərinin əsas inkişaf dövrü 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə başlayıb. Osmanlı dövləti gənc Cümhuriyyəti ilk gündən siyasi, hərbi və mənəvi cəhətdən dəstəkləyirdi. Nəhayət, 1918-ci il sentyabrın 15-də Azərbaycan və Osmanlı orduları çiyin-çiyinə döyüşərək Bakını düşmən işğalından azad etdilər. Lakin bu isti münasibətlər uzun sürmədi. Bolşeviklərin bölgəyə daxil olması Azərbaycan-Türkiyə əlaqələrinin qarşısını aldı və iki qardaş xalq bir-birindən uzaq düşdü. Bundan ən çox faydalanan isə ermənilər oldu. Sovetlərin Cənubi Qafqazı işğalı nəticəsində Ermənistan ərazi baxımından genişləndirildi, bu isə Azərbaycan torpaqları hesabına baş verdi. Türk dünyasının coğrafi bağlantısını qırmaq üçün Qərbi Zəngəzur Ermənistana peşkəş edildi. 1920-ci il noyabrın 30-da Azərbaycan Kommunist Partiyasının iclasında qəbul edilən qərarla sovet Azərbaycanı ilə sovet Ermənistanı arasında sərhəd olmadığı elan edildi. Bu da Zəngəzurun ermənilərə verilməsi demək idi. Bir gecədə tarixi torpaqlarımızı itirdik, türk dünyasının quru əlaqəsi süni şəkildə kəsildi.*

Qərbi Zəngəzurun Ermənistana verilməsi demək olar ki, ölkəmizi ikinci dəfə iki yerə parçaladı. 1828-ci ildə Vətənimiz Şimal və Cənub hissəyə bölünmüşdüsə, bu dəfə Naxçıvan Azərbaycanın əsas hissəsindən ayrı düşdü. Bu, 1990-cı illərin əvvəllərində başlayan Qarabağ münaqişəsində özünü daha qabarıq şəkildə göstərib. Həmin dövrdə ermənilər təkcə Qarabağa deyil, Naxçıvana da ərazi iddiaları irəli sürürdülər.

Sovet İttifaqının süqutu Azərbaycanda dərin siyasi və ictimai böhran yaratmışdı. Ölkə parçalanmaq təhlükəsi ilə üz-üzə idi, Ermənistanın əsassız torpaq iddiaları isə bu çətin dövrü daha da gərginləşdirirdi. Azərbaycan iqtisadi, siyasi və hərbi baxımdan ağır vəziyyətə düşmüş, blokada şəraitində yaşayan Naxçıvan isə sanki taleyin ümidinə buraxılmışdı. Ermənilər bundan istifadə edərək muxtar respublikaya qarşı hərbi və siyasi təzyiqlərini günü-gündən artırırdılar. Amma Naxçıvan əhalisi geri çəkilmədi. Bütün çətinliklərə baxmayaraq, bu qədim Azərbaycan torpağında insanlar mərdliklə mübarizə aparır, muxtar respublikanın ərazi bütövlüyünü qorumaq üçün əlindən gələni edirdi. Belə bir ağır məqamda xalqın tək ümidi təcrübəli və müdrik liderə - Heydər Əliyevə idi.

1990-cı il iyulun 22-də Heydər Əliyevin Naxçıvana gəlişi təkcə muxtar respublika üçün deyil, bütün Azərbaycan üçün yeni bir dövrün başlanğıcı oldu. Çox keçmədən, 30 sentyabrda keçirilən parlament seçkilərində ulu öndər həm Azərbaycan, həm də Naxçıvan parlamentinə deputat seçildi. Xalq bu xəbəri böyük sevinc və ümidlə qarşıladı. Lakin bu, sadəcə başlanğıc idi.

1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilən Heydər Əliyev Naxçıvanın xilası yolunda tarixi addımlar atdı. Bu qərar Azərbaycan xalqı üçün bir dönüş nöqtəsi oldu. Artıq hər kəs bilirdi ki, Naxçıvan heç vaxt düşmən caynağına keçməyəcək. Ulu Öndər hər zaman olduğu kimi, öz gəlişi ilə Naxçıvana yeni nəfəs gətirdi, ağır blokada şəraitində olmasına baxmayaraq, bu qədim diyarı dirçəltməyə başladı. Burada muxtar respublika üçün deyil, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, dövlət quruculuğu prosesində mayak rolunu oynayan qərarların qəbul edilməsinə nail oldu. İnsanlar gələcəyə inamla baxmağa başladı, çünki Ümummilli Lider Heydər Əliyev həm Naxçıvanın, həm də bütün Azərbaycanın ümid çırağı idi. Ümummilli Liderimizin Naxçıvana gəlişi, xalqın təkidli tələbi və istəyi ilə muxtar respublikanın rəhbəri seçilərək son dərəcə ağır vəziyyətdə olan bu ulu diyarı mətanətlə qoruması, əsl nicat yoluna çıxararaq hərtərəfli yüksəlişə qovuşdurması böyük əhəmiyyət daşımaqla, bütövlükdə, ölkəmiz üçün mühüm bir hadisəyə çevrildi.

Naxçıvanın o zaman işğal altına düşməməsinin səbəblərindən biri də 1992-ci il mayın 28-də Azərbaycan-Türkiyə sərhədində, Araz çayı üzərində "Ümid" körpüsünün açılması oldu. Bu körpü iki qardaş xalqın bir-birinə qovuşmasının, könüldən-könülə uzanan yolun rəmzinə çevrildi. Bu böyük addımın əsası isə bundan bir neçə ay əvvəl, 1992-ci ilin martında qoyulmuşdu. Həmin vaxt Ulu Öndər Heydər Əliyev Türkiyəyə səfər edərək, Naxçıvan və Türkiyə arasında əlaqələrin daha da gücləndirilməsi məqsədilə mühüm əməkdaşlıq protokolunu imzalamışdı. Qərarın nəticəsi olaraq, Sədərək-Dilucu körpüsünün tikintisinə start verildi. Nəhayət, 28 may 1992-ci ildə bu körpü istifadəyə verildi. Bununla da Naxçıvanın blokada şəraitində yaşadığı çətinliklərin aradan qaldırılması istiqamətində mühüm bir addım atıldı. Əhali üçün yeni imkanlar açıldı, iqtisadi və sosial vəziyyətin yaxşılaşmasına, muxtar respublikanın beynəlxalq aləmdə tanınması üçün şərait yarandı. Ümummilli Lider Heydər Əliyev bu körpünün əhəmiyyətini xüsusi vurğulayaraq deyirdi: "Belə bir körpü tikmək bizim bir azərbaycanlı kimi, şəxsən mənim on illərlə qəlbimdə olan arzu idi. Bu fikir mənim qəlbimdə on illərlə yaşayırdı. Mən özümü xoşbəxt hesab edirəm ki, gördüyüm bütün başqa işlərlə bərabər, o ümid, həsrət körpüsünün qısa müddətdə tikilməsinin, yaranmasının təşəbbüskarı oldum".

Ulu öndərin siyasi varisi Prezident İlham Əliyev hər zaman Naxçıvan Muxtar Respublikasına böyük diqqət və qayğı göstərib. Elə bu günlərdə İğdır-Naxçıvan qaz kəməri layihəsinin ərsəyə gəlməsi bunun bariz sübutudur. İğdır-Naxçıvan qaz boru kəməri layihəsi muxtar respublikanın qaz təchizatını şaxələndirməklə yanaşı, həm Naxçıvan, həm də İğdır əhalisinin rifahına xidmət edəcək. Layihənin daha bir özəlliyi ondan ibarətdir ki, bu gün kəmərin maksimum ötürmə gücü 730 milyon kubmetrdirsə, gələcəkdə layihənin genişləndirilməsi imkanları da var. Bu layihənin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, İranın Azərbaycana qarşı aqressiv siyasətində Naxçıvana çıxış və enerji təhlükəsizliyini rıçaqlardan biri kimi istifadə edib. İğdır-Naxçıvan kəməri bu riskləri və bir mənbədən asılılığı aradan qaldıracaq. Prezident İlham Əliyev təkcə Naxçıvanın təhlükəsizliyini təmin etməklə kifayətlənmir, eyni zamanda tarixi ədalətin bərpası istiqamətində mühüm addımlar atır. Bu prosesin ən vacib elementi isə 2020-ci il 10 noyabr Bəyanatında nəzərdə tutulan Zəngəzur dəhlizinin açılmasıdır. Bir əsrdir blokada şəraitində yaşayan Naxçıvan, bu dəhliz vasitəsilə yenidən Azərbaycanın əsas hissəsinə qovuşacaq. Zəngəzur dəhlizi təkcə Naxçıvanla Azərbaycanın quru bağlantısını bərpa etməklə məhdudlaşmır. Eyni zamanda bu dəhliz Türkiyə ilə birbaşa quru əlaqəsinin yaradılmasına səbəb olacaq. Bunun sayəsində Azərbaycan və Türkiyə arasındakı ticarət, logistika və əməkdaşlıq daha sürətli, rahat və genişmiqyaslı şəkildə inkişaf edəcək.

Beləliklə, Zəngəzur dəhlizi tarixi haqsızlığa son qoyaraq Naxçıvanı öz təbii coğrafi və siyasi məkanına qaytaracaq, eyni zamanda Cənubi Qafqazın yeni inkişaf yolunu müəyyənləşdirəcək.

**Musa BAĞIRLI,**
**"Respublika".**

Respublika.- 2025.- 7 mart, (№ 51).-